# ULU ÖNDƏRLİK MİSSİYASI

**Əziz oxucu, bu yazını yazmazdan əvvəl, əqidəsindən asılı olmadan, hər bir soydaşımın şəxsiyyətinə yüksək sayğı ilə yanaşaraq, düşündüm ki, haqqında söhbət açacağım mövzu barəsində elə bir mənzərə yaratmağa çalışmalıyam və elə nöqtələrə toxunmalıyam ki, ikili görüntü yaranmasın. Yəni kimsə yazıya görə məni haqlı, kimsə haqsız hesab etməsin. Ona görə də çalışdım məsələyə elə yanaşım, elə mövqe tutum və elə mülahizələr irəli sürüm ki, hər bir oxucu fikirlərimin həqiqət olduğuna inansın. Və yaxud da, inanmayanlar tarixin səhifələrində araşdırmalar aparsın, faktları ələkdən keçirsin və həqiqətləri özü dərk etsin...**



Azərbaycanımızın müstəqillik tarixinə nəzər saldıqda qürurverici hadisələrlə öyünməyə birmənalı şəkildə haqqımız olduğuna dair saysız-hesabsız misallar gətirə biləcəyimizin mümkünlüyünü gördükdə, dünya birliyi qarşısında böyük inamla səslənə bilirik və ən önəmlisi də odur ki, bütün reallıqlar bizə əsas verir fərəhlənək ki, biz yer kürəsinin tarixi səhifələrində özünəməxsus yeri və mövqeyi olan qədim, yüksək intellekt sahibi olan istedadlı millətlərdən biriyik. Həm də biz öz intellektual səviyyəmizlə bütün Şərqə nümunə olan zəka sahibləri olduğumuzu sübut etmişik, bu gün də etməkdəyik. Bu həqiqəti istər mədəniyyət, istərsə də siyasət müstəvisində təsdiq etmişik. Siyasət sahəsindəki zəka qüdrətimizin gerçəkliyini isbat edən və tarixiləşdirən misallardan ən önəmlisi xalqımızın dəyərli oğlu M.Ə.Rəsulzadənin bütün Şərqdə yüksəltdiyi üçrəngli bayraq və öz silahdaşları ilə birgə yaratdığı ilk müstəqil cümhuriyyət faktorudur.

Əlbəttə ki, bu fakta qədər, müxtəlif dövrlərə aid Azərbaycanın dövlətçilik tarixinin həqiqətlərini öz danılmazlığı ilə təsdiqləyən, tarixin salnaməsində özünün möhtəşəm yerini bərqərar etdiyini yansıdan çoxlu tarixi gerçəkliklər də vardır. Lakin müasirlik nöqteyi-nəzərindən yaradılan ilk cümhuriyyət dövlətçiliyi siyasi qurumu həqiqətən də tarixin ən unikal hadisəsidir və XX əsrin müstəqillik hadisəsi tarixində ayrıca yeri olan bir həqiqətdir. Bu müstəqilliyi bizə həmin dövrün bir qrup zəka sahibləri ilə birgə fəaliyyətləri və birgə zəhmətləri nəticəsində töhfə etmişlər. Burada kiminsə haqqını üstün tutmaq, kiminsə zəhmətini azaltmaq, kiminsə haqqını danmaq və ya kimisə fərqləndirmək yanlış olardı. Çünki cümhuriyyətçilərin hər biri əlindən gələni etmişdi ki, Azərbaycan müstəqil ola bilsin. Əlbəttə ki, onların sövq-təbii səhvləri də oldu ki, bu gün həmin səhvlər nəticəsində həm biz əziyyətlər çəkirik, həm də zamanında onlar öz ideologiyalarının yaşamasını qoruyub saxlaya bilmədikləri üçün xalqımızın qanı bahasına yaradılan dövlətçiliyimizi öz əlləri ilə bolşevik azərbaycançılarına təhvil vermək məcburiyyətində qaldılar. Bu, danılmaz bir tarixdir və bu tarixi gerçəklikdə həqiqətlərin gözlərinə düz baxmaq da bir millət olaraq bizim müqəddəs borcumuzdur.

Razılaşmalıyıq ki, həmin zəka sahiblərimizin gücü hər şeyə çatdı, ən azından bütün Şərqdə ilk dəfə Demokratik Cümhuriyyət qurdular, ancaq bu da bir faktdır ki, ən vacib olan müstəqilliyimizin daimi və əbədi olmasını qoruyub saxlamaq məsələsində yetənəksiz olduqları ilə bizi, yəni Azərbaycan xalqını məyus etdilər. Niyə məyus etdilər? Ona görə yox ki, onlar bizim müstəqilliyimizi istəmirdilər və ya ideoloji nöqteyi-nəzərdən savadsız idilər və ya dövləti saxlamaq üçün resurslarımız yox idi, ya da ki, ona görə yox ki, bizim xalqımızın əzmi zəif idi, xeyr, əsas olan odur ki, biz həm yaratdığımız demokratik dövlətimizi qoruyub-saxlamaq üçün o dövr hadisələrinin mənzərəsini görə bilmək və sağlam qərarlar çıxarmaq baxımından, təcrübəsizliyimiz nəticəsində bacarıqlı olmadıq, həm də ümumən siyasi müstəvidə aparılan oyunların gedişlərini düzgün hesablaya bilmədiyimizə görə məğlub olduq. İntellektual gücümüzlə, emosional qüvvəmizlə tarixdə görünməmiş bir hadisə yaratdıq, ancaq öndərlik missiyamızın daşıyıcılarının çiyinləri həmin fenomenə yüklənmək gücündə olmadıqları üçün qazandığımız hər şeyi güdaza verdik. Məğlubiyyət həm də ona görə baş verdi ki, üçrəngli bayrağımızı qaldıran şəxsiyyətlərin dövlətçilik təcrübələrinin, fenomenal idrak qüdrətlərinin yetərincə olmaması ilə yanaşı, kommunist partiyasının ideyalarına ifrat dərəcədə inanan və Azərbaycanı fəhlə-kəndli yoldaşlığı, birliyi və bərabərliyi çərçivəsində daha sağlam şəkildə xoşbəxt edəcəklərinə güvənən şurəvilərin apardıqları siyasi təbliğat və inandırıcılıq qabiliyyətləri güclü idi. Daha doğrusu, cümhuriyyətçilik ideologiyasının liderləri şurəviçilik ideologiyasının liderləri qarşısında özlərinin zəif potensiala malik olduqlarını büruzə vermək məcburiyyətində qaldılar və beləliklə də xalqın gücü bahasına əldə olunan müstəqillik sərvətimiz, yəni Şərqin ilk Cümhuriyyət dövlətçiliyi olan dövlətçiliyimiz iflasa uğramaq məcburiyyətində qaldı. Və sonrakı mərhələdə həmin cümhuriyyətçilərin bir qismi terror hadisələrinə, bir qismi repressiyalara məruz qaldılar, bir qismi isə mühacirət həyatına üstünlük verdilər. İnsaf naminə deməliyik ki, mühacirətçilər bütün həyatları boyu cümhuriyyətçilik ideyalarını özləri ilə yaşatdılar, lakin yenidən həmin yüksək həddin zirvəsini bir daha heç vaxt fəth edə bilmədilər. Ona görə də həmin şəxsiyyətlərin haqqında danışarkən ədalətli olmağa çalışmalıyıq, onların əziyyətlərini unutmamalıyıq, eyni zamanda da, onlar haqqında hissə qapılıb həddini aşmış dərəcədə fanatizmə yol verməməliyik və bu məsələ hər birimizin müqəddəs borcu olduğunu dərk etməliyik və onu da dərk etmək bizim müqəddəs borcumuzdur ki, biz bir millət və xalq olaraq həqiqətin gözlərinin içinə dik baxmağı, tarixi gerçəklikləri dəyərləndirməyi anlamaq qüdrətində olduğumuzu unutmamalıyıq.

Tarixə ekskurs edərkən ortaya belə bir mənzərə çıxır ki, 1918-ci ildən üzü bəri, yəni Cümhuriyyətin süqutuna qədər bolşeviklərin ideologiyasına xidmət edən və həqiqət naminə qeyd etməliyik ki, cümhuriyyətçilərin ideologiyası qədər kommunistlərin ideologiyası hüdudlarında Azərbaycanın xoşbəxtçiliyinə çalışan milli məfkurəsi güclü olan həmvətənlərimiz xalqımızın rifahını heç də cümhuriyyətçilərdən az istəmirdilər. Təəssüflər olsun ki, sonrakı mərhələdə bolşeviklərin apardıqları siyasət öz məhvərini dəyişdi və bütün millətlər kimi, bizim də taleyimiz uğursuz nəticələrə məruz qaldı. Ancaq biz onu da əminliklə deyə bilmərik ki, cümhuriyyətçilərin yaratdıqları dövlətçilik ideologiyası yaşasaydı, onun taleyi aparacaqları siyasətin nəticələri etibarilə mütləq şəkildə uğurlu olacaqdı. Bütün bunlar bir illüziya olaraq bizim üçün naməlumdur. Ona görə də bugünkü gerçəklikdə özünü əsas müxalifətçilər adlandıranlara və xarici ölkələrdə oturub hazırkı müstəqilliyimizin çökdürülməsi üçün təbliğat aparan milli xainlərə, “müasir şurəviçilərə!” üzümü tutaraq demək istəyirəm ki, bir vaxtlar Lenin ideologiyası ətrafında cümhuriyyətçiliyimizi çökdürməyə çalışanların obrazı sizlərin simasında çox ifrat çirkinliklə özünü göstərməkdədir. Çünki keçən əsrin şurəviçiləri önündə dayanan cümhuriyyətçilər səriştəsiz idilər. Bugünkü müstəqilliyimizi qurmuş, ulu öndərlik missiyasının sanballı daşıyıcısı Heydər Əliyev siyasi təfəkkürünün qoyduğu monumental dövlətçilik təməlləri önündə sizlər, sözümdən inciməyin, (və gedin ağlınızın tutumuna məxsus işlərlə məşğul olun!) uca zirvəyə ən dərin quyudan baxan acizlər kimi görünürsünüz...

Bir anlıq qayıdaq keçən əsrin əvvəllərinə. Düşünək ki, Cümhuriyyətimizin əleyhinə təbliğat aparan və özlərini haqlı hesab edən soydaşlarımızın canfəşanlığı hazırda sizlərin canfəşanlığı ilə adekvatdır və eyni ideologiyanın təmsilçilərisiniz, onda baxın ki, xalqını sizlərdən az sevməyən, əksinə, hədsiz qədər sevən böyük Nəriman Nərimanov, Əliheydər Qarayev, M.Əzizbəyov və digər vətənpərvərlərimizin fədakarlıqlarının nəticəsi necə oldu? Ölümcül!... N.Nərimanovun öz oğluna yazdığı məktubunda hansı peşmançılığı etiraf edyini unutmayın. Elə hesab etməyin ki, mən sizləri o nəhəng şəxsiyyətlə bir müstəviyə yüksəldirəm, xeyr, demək istəyirəm ki, elə bir zəka sahibi aldanıldığını anladı və gec də olsa dərk etdisə, sizlər, yəni, başqa dəyirmanlara kor-koranə su tökənlər bilin ki, Heydər Əliyev fenomenini M.Ə.Rəsulzadə vətənpərvərliyi ilə qarışıq salmaq olmaz. Hazırda M.Ə.Rəsulzadənin adı ilə bazarlıq edən dəllallar anlamalıdırlar ki, M.Ə.Rəsulzadə tarixi zəmin nəticəsində Şərqdə ilk dəfə bayraq qaldırdısa və “Bir kərə qalxan bayraq bir daha enməz!” fəlsəfəsini milli ideologiyamızın zirvəsinə yüksəltsə də, qurulmuş dövləti qoruyub saxlamaq kimi vacib bir gerçəkliyin öhdəsindən gələ bilmədi. Bu, bir həqiqətdir və heç kəs belə qəbul etməsin ki, mən M.Ə.Rəsulzadənin xidmətlərinin üzərinə kölgə salmaq niyyətindəyəm, əsla! M.Ə.Rəsulzadə Azərbaycan xalqının nəhəng tarixi şəxsiyyətlərindən biridir və o cümlədən də Ə.Əliyev (Elçibəy) bizim unudulmaz, milli mücadilə fədailərimizdəndirlər. Ancaq gəlin qəbul edək ki, onların heç biri dövlət xadimləri ola bilmədilər. Yenə də deyirəm ki, bu o demək deyildir ki, onların xidmətləri arxa plana keçirilməlidir, diqqətə alınmamalıdır, əsla, əksinə, onlar daim xatırlanmalıdırlar, onların xidmətləri yüksək dəyərləndirilməlidir, anacaq hər şeyi öz adı ilə çağırmağın tərəfdarıyam. Biz bütün cümhuriyyətçilərin, bütün müasir Azərbaycanın müstəqilliyi uğrunda çalışmış insanlarımızın xatirəsini həmişə əziz tutmalıyıq və bu bizim müqəddəs borcumuzdur! Şəxsiyyətləri qarışıq salmaq və ya xalqımızın dəyərli simalarını başqa dövlətlərin ideologiyasına qurban verməyə çalışmaq manqurtluq fanatizmidir. Onu da unutmaq lazım deyil ki, müasir müstəqil Azərbaycanın yaranması üçün hər birimiz müxtəlif formalarda və müxtəlif miqyaslarda öz üzərimizə düşən missiyamızı yerinə yetirmişik, ancaq liderlərimizi unutmamalıyıq və hər kəsə öz miqyasına görə dəyər verməliyik! Unutmamalı olduğumuz ən parlaq şəxsiyyət ulu öndərlik miqyasına yüksəlmiş Heydər Əliyevdir! Bəli, Heydər Əliyev ulu öndərlik fenomeninə həqiqətən layiq şəxsiyyətdir. Bəlkə mənim bu fikrimi kimlərsə qatı Heydər Əliyevçi olmağımla əlaqələndirə bilər, ancaq bu belə deyildir. Heydər Əliyevin bütün həyatı, keçdiyi ömür yolu, qarşılaşdığı keçilməz labirintləri dəf etmək bacarığı, qazandığı uğurlar və sair amillər onu məhz ulu öndərlik, ümummilli liderlik miqyasına yüksəltdi. Heydər Əliyevin səhnədə ürək krizi keçirməsini gözləriniz önünə gətirin. Yalnız Allahın fenomenal şəxsiyyətləri belə bir vəziyyətdə ölümün gözlərinin içinə dik baxa bilmək iqtidarında olduqlarını və onu yenə bilmək qüdrətində olduqlarını sübut edə bilirlər.

Heydər Əliyevi heç bir vətənpərvərlə, fədakar şəxsiyyətlərlə qarışdırmaq olmaz! Çünki Heydər Əliyev müasir müstəqil Azərbaycanın dövlətçilik siyasətini köklü şəkildə qurmuş və dağılması mümkün olmayan bir dövlətin (dağıtmağa can atan saysız-hesabsız “sapı özümüzdən olan baltalar” olsa belə!) həm milli ideologiyasını, həm də dünyəvi siyasi kursunun əsaslarını formalaşdırmış fenomendir! Əgər yaranmış bir dövlətin quruculuq siyasəti onu otuz il ərzində dünyanın nəhəng dövlətləri sırasında qorunmasını təmin edə bildisə, hətta müharibə vəziyyətində olduğumuz bir zamanda, çoxlu sayda əleyhdarlarımızın, üzərimizə etdikləri mənfur siyasi basqılara rəğmən bir dövlət olaraq hesablaşırıqsa, bütün bunlara görə məhz ulu öndərlik missiyasını çiyinlərində daşıya bilmək qüdrətini sübut etmiş, Azərbaycan xalqının milli zəka sərvəti olan böyük Heydər Əliyevə borclu olduğumuzu danmamalıyıq və biz Heydər Əliyevi bizə bəxş etmiş Allahımıza minnəttdar olmalıyıq! Bu gün həmin yolu əzmlə davam etdirən möhtərəm Prezident İlham Əliyevin apardığı kurs da bunu göstərir ki, Heydər Əliyevin qoyduğu yolun təməli heç vaxt dağıla bilməz. Heydər Əliyev fenomeninin ideologiyasını sarsıtmağa çalışmaq milli xəyanətkarlıqdır və müstəqilliyimizin başqa dövlətlərin boyunduruğu altına salınması istiqamətində aparılan kirli bir kursdur. Biz - Azərbaycan xalqı həmin kursun qarşısına sinəmizlə çıxdığımızı xaricdən havalı-havalı sayıqlayan manqurtlara bəyan etməkdə israrlıyıq!

Baxın, Heydər Əliyev elə bir mühit yarada bilmişdir ki, Azərbaycan bir ailə timsalına çevrilmişdir. Bütövlükdə Şərq mentalitetinə xas olan xüsusiyyətlər Azərbaycanı ata, ana, qardaş, bacı, nəvə, nəticə, kötücə bağlılıqları ilə mental dəyərlərin qorunması və inkişaf etdirilməsi şərt olaraq birbirinə sıx birləşdirmişdir. Ona görə də, yaxşı olar ki, milli xəyanətkarlar, hətta belə demək daha doğru olar ki, başının dərisi dəyişdirilmiş manqurtlar bir parça çörək üçün özlərini saldıqları buxovlu zəncirlərdən qoparmağa çalışsınlar. Anlasınlar ki, ulduzlar əlçatmazdır, ulduzlara hayqırmaqla onların zirvəsinə yüksəlmək olmaz. Keçirdiyimiz bu ağır pandemiya sınaqlarının, gərgin günlərin bizlərin nə qədər birliyə ehtiyacımız olduğunu göstərdiyi bir zamanda Prezidentimiz də, Birinci vitse-prezidentimiz də, yəni ölkəmizin lideri də, ölkəmizin birinci xanımı da bir an belə xalqımızdan ayrı qalmadılar. Öz həyatlarından daha çox bizlərin həyatının qorunmasına çalışdılar. Xalqla can-cana olmaq nümunəsinin bizə - Azərbaycan ailəsinə məxsus olduğunu isbatladılar. Ona görə də Azərbaycan ailəsinin şəcərə zəncirini qırmağa çalışanlar bilməlidirlər ki, təməlləri möhkəm olan məhəbbəti öldürmək mümkün deyildir.

⇨ **Davamı 7-ci səhifədə**

# ULU ÖNDƏRLİK MİSSİYASI



**İftixar Piriyev,**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi*

⇨ Əvvəli 4-cü səhifədə

Ulu öndərlik missiyası barədə danışarkən təkcə bir faktı nümunə gətirməklə deyə bilərik ki, Heydər Əliyevin üçrəngli bayrağımızı, yəni ilk Cümhuriyyət bayrağımızı hələ Sovet İttifaqının var olduğu və millətlər əlindən zəncir çeynədiyi gözüqızmış şirə döndüyü bir zamanda Naxçıvanda dövlət bayrağı miqyasına qaldırması o böyük şəxsiyyətin fenomenal öndərlik cəhəti olduğunu isbat edən amildir. Baxın, Heydər Əliyev o qədər yüksək zirvədə bərqərardır ki, həmişə yolun doğru olan səmtini seçə bilmişdir. Axı, zirvədən yollar aydın görünür. İnanıram ki, həmin dövrdə Heydər Əliyev hər hansı bir bayrağı yüksəltsəydi, yəni yeni bir bayraq icad edib, onun ətrafında birləşməyə səsləsəydi, Heydər Əliyevə olan xalq sevgisi həmin bayraq altında birləşmək üçün Heydər Əliyevin ətrafına toplaşacaqdılar və həmin bayraq da bu gün bizim başımız üzərində dalğalanacaqdı, biz də həm Cümhuriyyət tariximizi unutmuş olacaqdıq, həm də yeni siyasi sistem üzərində bərqərar olmuş bir dövlətin vətəndaşları kimi tarixə düşəcəkdik. Görün ki, Heydər Əliyev o qədər vətənsevər, o qədər milli təəssübkeş, o qədər yüksək ağıl sahibi, o qədər dərin siyasi zəkası olan, Azərbaycanı və Azərbaycanın dövlətçilik ənənəsinin davam etdirilməsini üstün tutan bir liderdir ki, M.Ə.Rəsulzadəni yenidən yaşatmaq üçün onun yüksəltdiyi bayrağın bir daha enməməsini təmin etdi. M.Ə.Rəsulzadənin ruhunu yaşatdı, xalqımızı onun yüksəltdiyi bayraq ətrafında sıx birləşməyə və Azərbaycanın dövlət rəmzlərini həmin tarixi faktlara söykənərək yenilənməsini tövsiyə etdi. Baxın, Heydər Əliyev belə fenomen qüdrət sahibidir. O, heç vaxt ayrı-seçkilik haqqında düşünmədi. Xalqımızı həmişə birliyə, həmrəyliyə, bütövlüyə səslədi. İstər-istəməz bu mövqe Heydər Əliyevi ulu öndərlik miqyasına yüksəltdi.

Bəli, bu anda belə bir həqiqət barədə də düşünməyin yeri vardır ki, Cümhuriyyətimiz on birinci "Qızıl Ordu"nun sel kimi axan real gücü qarşısında irəli sürülən şərtləri qeyri şərtsiz qəbul etmək məcburiyyətində qaldı. O zaman belə bir sual da doğur ki, ulu öndər Mustafa Kamal Atatürkün qurduğu Cümhuriyyətin önündə dayanmış dünya dövlətlərinin gücü, qüvvəsi on birinci ordunun imkanlarından genişmi idi? Əsla! Sadəcə, dediyimiz kimi ulu öndərlik missiyasını daşıya bilmək haqqını qazanmış şəxsiyyətlər bütün maneələri dəf edə bilirlər. Necə ki, 1923-cü ildə Mustafa Kamal Atatürk dünyanın Türkiyəni parampärça etmək üçün birləşib azğıncasına hücuma keçdikləri bir zamanda daxili və xarici siyasəti doğru və düzgün qurdu və türk xalqını məhv olmaq təhlükəsindən qurtardı, dünyəvi dövlətə çevirdi, eləcə də Heydər Əliyev həmin missiya ilə Azərbaycanı parampärça olmaqdan və azərbaycanlıları yenidən boyunduruq altına düşməkdən qurtardı, xilas etdi.

Biz istədiyimiz vaxt, istədiyimiz insanlara hər cür ad qoya bilərik. Ancaq unutmayaq ki, Dədəmiz Qorqud oğullarımıza əməllərinə görə ad qoyardı. İndi dərk etmək lazımdır ki, hər birinə misilsiz hörmətim olan, xalqımızın azadlığı uğrunda bütün həyatlarını qurban vermiş M.Ə.Rəsulzadə də, N.Nərimanov da, Ə.Əliyev (Elçibəy) də bizim üçün son dərəcə dəyərli simalardır. Zamanında hər biri Azərbaycanın özgür olması üçün canlarından keçmişlər. Onların xidmətləri danılmazdır. Onlar milli mücadilə fədailəridirlər. Onların hər biri bəlli bir məqama qədər bütün varlıqları ilə fədakarlıq etdilər və ömürlərinin sonuna qədər tutduqları yoldan dönmədilər. Ancaq unutmaq lazım deyil və birmənalı şəkildə dərk emək və qəbul etmək lazımdır ki, onların hər biri qədər, xalqımız üçün dəyərli olan Heydər Əliyev elə bir üfüqdə bərqərardır ki, inanıram ki, həmin simaların özləri də Heydər Əliyev fenomeninin danılmazlığını etiraf etməkdən çəkinməzdilər. Odur ki, xalqımızın dəyərli övladlarının kölgəsində öz məqsədləri uğrunda çalışmaq və ortada olan gerçəkliyi - Heydər Əliyev fenomenini əcdadlarımızın dəyərli nümayəndələri ilə qarşı-qarşıya qoymaq və ya hər kəsin haqqını qarışıq salmaq bizim milli ideologiyamıza zərbə endirməyə çalışanların oyuncağına çevrilməyə bərabər olduğunu unutmayaq!

Qardaşlarım, bacılarım, inanın, sizin əks-təbliğatlarınızın çirkin və qərəz dolu hava ilə üfürüldüyü o qədər aydın görünür ki, hətta partlamaq dərəcəsinə çatdığı göz önündədir. Çalışın o havanın daxil olduğu balon partladıqda üzünüzü-gözünüzü şikəst hala salmasın. Deyirəm, bəlkə özünüzə elə gəlir ki, dediklərinizin "həqiqətləri" ilə dünyanı və ya Azərbaycan vətəndaşlarını inandıra bilirsiniz, inanın ki, bu, heç də belə deyildir. Sizin çıxışlarınıza baxanlar sizə, sanki əyləncəli şouya baxırmışlar kimi yanaşırlar. Şübhəsiz ki, siz özünüz ağılda olanları yolundan çıxarmağa çalışırsınız, ancaq həmin adamlar bir anlıq sizlərin populist çıxışlarınızın təsiri altına düşmək kimi bir təhlükəyə qovuşsalar da, lakin bu qovuşma cəmisi bir neçə an çəkir və sonradan sizlərin hər biriniz həmin insanların gülüş hədəfinə çevrilirsiniz. Hər kəs düşünür ki, insan da öz milləti, dövləti, xalqı, xalqının nümayəndələri, rəhbərləri haqqında belə sərsəm fikirlər söyləyərmi? Söyləyirsə, demək ki, ağlını itirmişdir. Unutmayın ki, indi XX əsrin əvvəlləri deyil, artıq XXI əsrin əvvəlləridir! Yəni, ortadan düz yüz il, bir əsr zaman keçibdir!.. Və sizlər də "fəhlə-kəndli ideoloqları"nın yalançı ideyaçıları donuna girmiş olsanız da nə fəhləni, nə də kəndlini aldada bilməzsiniz. Çünki indi hamı hər şeyi görür, bilir, dərk edir və keçmişdəki səhvlərin təkrar olunmasını istəmirlər. Bir anlıq təsəvvür edin ki, sizlərin hər biriniz əlinizdə olan "silahla" öz sırtımızdan vurmağa deyil, milli ideologiyamıza, dövlətçiliyimizə, milli birliyimizə xidmət edən mövqe nümayiş etdirməyə çalışırsınız, görün bu işin dövlətçiliyimizin möhkəmlənməsi istiqamətində nə qədər səmərəsi ola bilər. Heç olmasa digər millətlərə baxın, nümunə götürün ki, milli təəssübkeşliyinizi heç bir mövqeyə və ya sərvətə dəyişməyəsiniz ki, gələcəkdə həm sizlərin səhv əməllərinizə görə öz doğmalarınızı pisikmiş vəziyyətə salmayasınız, həm də ləkəli övladlar damğası ilə möhürlənməyəsiniz. Necə deyərlər, yolun yarısından dönmək də qənimətdir! .

Sonda demək istəyirəm ki, yaşasın Azərbaycançılıq ideologiyası və bu yolda canını fəda etmiş insanların ruhları şad olsun və yaşasın ulu öndərlik missiyasının daşıyıcısı Heydər Əliyev fenomeni və ideyaları!